UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.2.209

**RUMİYƏ MƏMMƏDOVA***

# AZƏRBAYCAN MUSİQİŞÜNASLIĞINDA NAXÇIVANLI MUSİQİŞÜNASLARIN ROLU

*Musiqişünaslıq elmi sənətşünaslığın əsas sahələrindən biri olaraq musiqi mədəniyyətinin spesifik xarakterini müəyyən edən cəhətləri və qanunauyğunluqları öyrənir. Bu qədim elm sahəsi çoxəsrlik tarixə malikdir. Hələ orta əsrlərdən başlayaraq Azərbaycan musiqişünaslığında görkəmli alimlər Səfiəddin Urməvinin, Əbdülqadir Marağayinin, Mirzə bəyin traktatları, Mir Möhsüm Nəvvabın risalələri, dahi Üzeyir Hacıbəylinin elmi konsepsiyaları, tədqiqatları sayəsində müəyyən elmi nəticələr əldə edilmişdir.*

*Azərbaycanda musiqi incəsənətinin bütün istiqamətlərdə olduğu kimi XX əsrin musiqişünaslıq məktəbinin təşəkkülü və inkişafı da dahi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Böyük musiqişunas-alim Üzeyir bəy "Azərbaycan xalq musiqisinin əsasları" elmi əsəri ilə müasir musiqişünaslığın təməlini qoyaraq yeni musiqişünaslar nəslinin yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.*

*Azərbaycan musiqişünaslıq elminin inkişaf yolunda naxçıvanlı musiqişünasların da özünəməxsus töhfələri olmuşdur. Belə ki, Naxçıvanın ilk qadın musiqişünas-alimi, dosent Əqidə Ələkbərova, musiqişünas Rüxsarə Hüseynova, sənətşünaslıq üzrə fəlsəfə doktorları, dosentlər Güllü İsmayılova, Jalə Qulamova, Günay Məmmədova bu sahədə yorulmaz fəaliyyətləri ilə seçilmişdir.*

*Mövzuda elmi və pedaqoji fəaliyyətinə nəzər yetirilən hər bir musiqişünasın həqiqətən də Azərbaycan musiqi elminin inkişafında özünəməxsus dəsti-xətti olduğunun şahidi oluruq. Yazılan monoqrafiyalar, elmi məqalələr Azərbaycan musiqişünaslığının müasir problemlərinin müəyyən mənada həllinə səbəb ola biləcək əsərlərdir.*

***Açar sözlər:*** *Azərbaycan, Naxçıvan, musiqişünaslıq, monoqrafiya, elmi məqalə*

**Giriş**

Musiqişünaslıq elmi sənətşünaslığın əsas sahələrindən biri olaraq musiqi mədəniyyətinin spesifik xarakterini müəyyən edən cəhətləri və qanunauyğunluqları öyrənir. Bu qədim elm sahəsi çoxəsrlik tarixə malikdir. Hələ orta əsrlərdən başlayaraq Azərbaycan musiqişünaslığında görkəmli alimlər Səfiəddin Urməvinin (XIII əsr), Əbdülqadir Marağayinin (XIV əsr), Mirzə bəyin (XV əsr) traktatları, Mir Möhsüm Nəvvabın (XIX əsr) risalələri dahi Üzeyir Hacıbəylinin (XX əsr) elmi konsepsiyaları, tədqiqatları sayəsində müəyyən elmi nəticələr əldə edilmişdir.

**Əsas təhlil**

Azərbaycanda musiqi incəsənəti sahəsində bütün istiqamətlərdə olduğu kimi XX əsrin musiqişünaslıq məktəbinin təşəkkülü və inkişafı da dahi Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirən Ü.Hacıbəyli Azərbaycan və ümumiyyətlə Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir.

Böyük musiqişunas-alim Üzeyir bəy "Azərbaycan xalq musiqisinin əsasları" elmi əsəri ilə müasir musiqişünaslığın təməlini qoyaraq yeni musiqişünaslar nəslinin yetişməsində əvəzsiz xidmətlər göztərmişdir. Fatma Zeynalova, Xurşud Ağayeva, Xanlar Məlikov, Məmmədsaleh İsmayılov və s. tanınmış musiqişünas məhz Üzeyir bəydən dərs almış və zaman keçdikcə inkişaf edən bu elm sahəsi peşəkar musiqişünasların yetişməsi ilə davam etdirilmişdir.

Naxçıvanlı musiqişünaslar. Azərbaycan musiqişünaslıq elminin inkişaf yolunda naxçıvanlı musiqişünasların da özünəməxsus töhfələri olmuşdur. Belə ki, Naxçıvanın ilk qadın musiqişünas-alimi Əqidə Ələkbərova 20-ci əsrin 80-ci illərində təhsil alaraq musiqişünaslıq ixtisasına yiyələnmiş, öz sələflərinin layiqli davamçısı olmuşdur. Əqidə xanımın ərsəyə gətirdiyi tədqiqatlar Azərbaycan

musiqişünaslığının dəyərli araşdırmaları hesab edə bilərik. Ələxüsus onun Naxçıvan folklorunda yallı musiqisinin toplanıb tədqiq olunması işində göstərdiyi xidmətlər təqdirəlayiqdir.

Əqidə Ələkbərova Naxçıvan musiqi mədəniyyətinin inkişafında böyük xidmətləri olan Məmməd Ələkbərovun ailəsində dünyaya göz açmışdır. Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfini bitirdikdən sonra elmə olan marağı, tədqiqat aparmaq istəyi onu Azərbaycan Dövlət Konservatoriyasının tarix-nəzəriyyə ixtisasına gətirib çıxarmışdr. Hələ tələbə ikən bir çox elmi konfransların fəal iştirakçısı olan Ə.Ələkbərova özünün apardığı araşdırmalarda faydalı nəticələr əldə etmişdir. “Köçəri” yallısının erməni deyil, Azərbaycan yallısı olduğunu sübut etməyə çalışaraq “Köçəri”nin 10, “Tənzərə”nin 11 variantını ortaya çıxarmışdır.

Əqidə xanımın bir musiqişünas kimi elmi irsinə nəzər salsaq görərik ki, musiqinin müxtəlif istiqamətlərini əhatə edən bir sıra elmi məqalələri var: “Köçəri yallısı. Etnomusiqi təhlil”, “Yallıların musiqi yozumu”, “Kitabi - Dədə Qorqudun musiqi yozumuna dair”, “Ərtoğrul Cavid –Azərbaycanın elm xadimidir”, “Yallı sənəti və onun Gəmiqaya rəsmləri ilə bağlılığı”, “Heydər Əliyevin Azərbaycanın musiqi mədəniyyətinin inkişafında rolu”, “Naxçıvan Muxtar Respublikasının musiqi mədəniyyətinin inkişaf mərhələləri” (rus dilində) və s. kimi onlarla əsər məhz onun qələminin məhsulu olmuşdur. Moskva Sənətşünaslıq Elmi-tədqiqat İnstitutunun aspiranturasını bitirən Əqidə xanım dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi elmi dərəcəsi almışdır.

1985-ci ildən ömrünün sonunadək Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Əqidə Ələkbərova burada fəal musiqişünas kimi daima qurultaylarda özünün məzmunlu çıxışları ilə hər zaman diqqət çəkmişdir.

Musiqişünas-alimin ən böyük işlərindən biri də 1992-ci ildə Kanadada “Heyvagülü” adlı kompakt diski yazdırması idi. Əqidə xanım bu diskə “Dədə Qorqud” qrupunun ifa etdiyi xalq musiqi nümunələrini toplamışdır. Diskdə həmçinin qədim Naxçıvan diyarı, onun ərazisi, mədəniyyəti haqqında ingilis dilində məlumat da yerləşdirilmişdir. Ömrünün son illərində Amerikanın Açıq Cəmiyyət İnstitutunun qrand layihəsi ilə yaratdığı “Naxçıvan İncəsənət Mərkəzi” Naxçıvan musiqi mədəniyyətinin dünyada tanıdılması işində olduqca böyük əhəmiyyətə malik olmuşdur.

Əmək fəaliyyətinə müəllimlik kimi şərəfli bir peşə ilə başlayan Əqidə Ələkbərova şöbə müdiri, direktor, kafedra müdiri, dekan müavini, dekan vəzifələrinə qədər yüksələrək daşıdığı vəzifələrin öhdəsindən layiqincə gəlmişdir. Naxçıvan Musiqi Texnikumunda direktor, daha sonra Naxçıvan Dövlət Universitetinin “İncəsənət” fakültəsinin dekanı vəzifəsində çalışarkən Əqidə xanım Naxçıvanda ixtisaslı kadrların yüksək səviyyədə yetişməsi işinə ciddi yanaşmış, onun gərgin əməyi sayəsində bu sahədə xeyli uğurlar əldə edilmişdir.

Sənətşünaslıq namizədi, dosent Əqidə Ələkbərovanın fəaliyyəti dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmiş, ona Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi fəxri adı verilmişdir.

Naxçıvanlı musiqişünaslardan bəhs edərkən istedadlı musiqişünas, pedaqoq, Naxçıvan Bəstəkarlar Təşkilatının üzvü, Azərbaycan Respublikasının Əməkdar müəllimi Rüxsarə Hüseynovanın da adı qeyd edilməlidir.

Naxçıvan şəhərində anadan olan Rüxsarə Hüseynova təhsil yoluna 1978-ci ildə Ü.Hacıbəyov adına Naxçıvan Orta İxtisas Musiqi məktəbinin fortepiano sinfində başlamış, 1982-1987-ci illərdə isə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında musiqişünaslıq ixtisası üzrə davam etdirmişdir. Tələbəlik illərində M.S.İsmayılov, İ.Yermolayev, R.Zöhrabov, A.Məlikov, Z.Bağırov və s. kimi görkəmli musiqişünas və bəstəkarlardan dərs alması Ruxsarə Hüseynovanın gələcəkdə peşəkar musiqişünas olaraq yetişməsinə zəmin yaratmışdır. Onun konservatoriyanı bitirən zaman təqdim etdiyi “Azərbaycan xalq teatrında musiqinin rolu” adlı diplom işi bu sahədə aparılan mühüm tədqiqat işi olmuşdur.

Ali təhsilini başa vurduqdan sonra təyinatla Naxçıvana gələn Rüxsarə xanım həmin ildən bugünədək orta və ali musiqi təhsil ocaqlarında nəzəri fənlərin tədrisi sahəsində yorulmadan, əzmlə çalışır, gənc musiqiçilərin yetişməsində böyük əmək sərf edir.

Rüxsarə xanımın müəllimlik fəaliyyəti ilə yanaşı, elmi nailiyyətləri də təqdirəlayiqdir. O, daim elmi konfranslarda çıxışlar etmiş, “Müasir Azərbaycanda musiqi folklorşünaslığı”, “Həmişəyaşar sənətkar”, “Musiqi və rənglər”, “Rus musiqisində orientalizm”, “Azərbaycan bəstəkarlarının yaradıcılığında polifoniya” və s. kimi elmi-publisistik məqalələri dövrü mətbuatda və müxtəlif elmi

jurnallarda işıq üzü görmüşdür.

Qeyd etmək lazımdır ki, Rüxsarə xanım elm sahəsində bir sıra ilklərin də müəllifidir. "Musiqinin elementar nəzəriyyəsi", "Musiqi əsərinin təhlili", "Polifoniya" fənlərinə aid proqramların hazırlanması, 2015-ci ildə ali, orta ixtisas və ibtidai məktəblərin tələbə və şagirdləri üçün "Musiqinin elementar nəzəriyyəsi" adlı dərsliyi, 2016-cı ildə bakalavr təhsil səviyyəsi üçün nəzərdə tutulan polifoniyanın tarixinə aid "Polifoniya" dərsliyinin I cildi, polifoniyanın nəzəriyyəsinə aid "Polifoniya dərsliyi" adlı kitabları məhz onun elmi uğurlarıdır.

Rüxsarə Hüseynovanın məhsuldar fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 17 sentyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar Müəllimi" fəxri adına layiq görülmüş, həmçinin Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən təhsil sahəsində səmərəli fəaliyyətimə görə diplomla təltif edilmişdir. O, həmçinin Naxçıvan MR Bəstəkarlar təşkilatının üzvüdür.

Elm sahədə yorulmadan çalışan Ruxsarə Hüseynova hal-hazırda ali və orta ixtisas musiqi məktəblərinin müəllim və tələbələri üçün çox faydalı olacaq bir kitab - "Musiqi əsərinin təhlili" dərsliyi üzərində işləyir.

Musiqişünas İsmayılova Güllü Həsən qızı da öz elmi göstəriciləri ilə seçilən naxçıvanlı musiqişünaslardan biridir. 1980-1984-cü illərdə Ü.Hacıbəyov adına Naxçıvan şəhər orta ixtisas musiqi məktəbinin fortepiano şöbəsində təhsil alan Güllü xanım daha sonra Bakı şəhərində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında musiqişünaslıq ixtisası üzrə təhsilini davam etdirmişdir.

1982-ci ildən pedaqoji fəaliyyətə başlayan G.İsmayılova Naxçıvan şəhərindəki uşaq incəsənət məktəbində, 1 saylı uşaq musiqi məktəbində, daha sonra musiqi texnikumunda, həmçinin Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində müəllim kimi çalışmışdır.

Artıq 40 ildir pedaqoji fəaliyyət göstərən Güllü xanım 2002-ci ildə Bakı şəhərinə köçdükdən sonra İncəsənət Gimnaziyasında, sonralar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim, dosent vəzifəsində çalışmış, "Tarixi və nəzəri musiqişünaslıq", "İxtisas-Musiqişünaslıq", "Musiqi-nəzəri sistemləri", "Musiqişünaslığın müasir problemləri", "Musiqişünaslığın tarixi və metodologiyası" və s. fənləri tədris etmişdir.

2003-cü ildə sənətşünaslıq namizədi alımlik dərəcəsi almaq üçün "Azərbaycan bəstəkarlarının mahnı melodiyalarında lad-məqamlardan istifadə məsələləri" mövzusunda dissertasiya müdafiə etmiş, 2012-ci ildən Bakı Musiqi Akademiyasının doktorantı kimi "Azərbaycan bəstəkarlarının yaradıcılığında milli ideologiyanın təcəssümü" mövzusunda doktorluq dissertasiyası üzərində işə başlamışdır.

Dövri mətbuatda, elmi konfranslarda, jurnallarda çoxsaylı elmi məqalələr, həmçinin "Bəstəkar Ramiz Mirişli" monoqrafiyası, "Naxçıvan MR Bəstəkarlar Təşkilatı", "Bəstəkar Mobil Babayev", Uzeyir Hajıbeyli`s "Arshin Mal Alan" movie (broşürülər), fənn proqramları, metodik tövsiyyə, dərs vəsaitləri və s. Güllü xanımın elmi göstəriciləri sırasına daxildir. Bəstəkarlıq sahəsində də qələmini sınayan G.İsmayılova 20 yanvar Şəhidlərinin xatirəsinə həsr olunmuş skripka və fortepiano üçün monoloq, Bəxtiyar Vahabzadənin, Xanəli Kərimlinin sözlərinə yazılmış bir neçə mahnı yazmışdır. Bir musiqişünas kimi fəal çalışan Güllü İsmayilova 1998-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqına üzv kimi qəbul olunmuş, 2011, 2014, 2018 və 2021-ci illərdə Azərbaycan Prezidentinin fərmanı ilə bir illik fərdi təqaüdlə mükafatlandırılmışdır.

Müxtəlif Respublika və Beynəlxalq konfranslarda, Azərbaycan Bəstəkarlar İttifaqında keçirilən tədbirlərdə, dəvət olunduğu müxtəlif televiziya kanallarındakı verilişlərdə bəstəkarların, ifaçıların yaradıcılığı və mahnı janrının problemləri haqqında danışmışdır.

Musiqişünas müxtəlif mövzulara müraciət edərək "Azərbaycan bəstəkarlarının əsərlərində Xocalı faciəsinin təcəssümü", "Üzeyir Hacıbəyli - tarixi şəxsiyyət və milli musiqimizin ölməz ideoloqu kimi", "Ramiz Mirişlinin musiqi dünyası", "Firəngiz Əlizadənin musiqi dünyası", "Fikrət Əmirovun yaradıcılığında milli ideologiyanın təcəssümü" və s. kimi 70-ə yaxın elmi-publisistik məqalə ərsəyə gətirmişdir.

Naxçıvan şəhərində dünyaya göz açan, uzun illər doğma torpağında elmi-pedaqoji fəaliyyətlə məşğul olan daha bir musiqişünas Jalə Qulamovadır. 1992-ci ildə Ü.Hacıbəyli adına Bakı Musiqi

Akademiyasının Tarix-nəzəriyyə fakultəsinin musiqişünaslıq şöbəsini fərqlənmə diplomu ilə bitirən Jalə Qulamova 10 ildən artıq Naxçıvan Musiqi Texnikumunda (indiki Naxçıvan Musiqi Kolleci) və Naxçıvan Dövlət Universitetində pedaqoq kimi nəzəri fənnlərdən dərs demişdir. 2002-ci ildən AMEA-nın Naxçıvan Bölməsinini "İncəsənət, Dil və Ədəbiyyat" İnstitutunda direktor müavini vəzifəsində işləyən Jalə Qulamova 2003-cü ildə Bakıya köçmüş, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin nəzdində Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda şöbə müdiri işləmiş, 2007-ci ildən isə Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında müəllim, baş müəllim, dosent kimi fəaliyyət göstərmiş, konservatoriyanın Elmi katibi vəzifəsində çalışmışdır. 2021-ci ildən "Etnomusiqişünaslıq" kafedrasının müdiridir.

2003-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Jalə xanım elə həmin ildə "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında oynanılan tamaşalarda musiqinin rolu və əhəmiyyəti" adlı namizədlik dissertasiyası müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. 2018-ci ildən Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantıdır.

Jalə Qulamovanın elmi-pedaqoji fəaliyyətini araşdırarkən görürük ki, o, bu sahədə olduqca fəal çalışmış, fənn proqramları, dərs vəsaiti və metodik vəsaitlər, çoxsaylı məqalələr yazmışdır. Jalə xanım hazırda "Şərq xalqlarının şifahi ənənəli professional musiqisi" fənninin dərsliyi üzərində işləyir. Qeyd edək ki, bu, Azərbaycanda həmin fənn üzrə yazılmış ilk dərslik olacaq.

Jalə Qulamova həmçinin "Sözlü, nəğməli Naxçıvan", "Naxçıvan Muxtar Respublikası Bəstəkarlarlar Təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu", "Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalırında musiqinin rolu və əhəmiyyəti", "Sirli səsin cazibəsi. Arif Babayev-80" adlı monoqrafiyaların, "Xalq musiqi nümunələrini təhlili", "Azərbaycan xanəndəlik sənəti tarixində Arif Babayevin rolu" və "Cahangir Cahangirovun "Violin və simfonik orkestr üçün konsert"i. Tar və fortepiano üçün köçürmə" adlı dərs vəsaitlərinin, "Naxçıvanda musiqili teatrın yaranması və inkişafı tarixi", "Musiqi tədrisində uşaqlar üçün yazılmış əsərlərin rolu və əhəmiyyəti" kimi metodik vəsaitlərin, 8 fənn proqramının, bəstəkarlar Nazim Quliyev, Məmmədağa Umudov (2 broşür), Vasif Allahverdiyevin həyat və yaradıcılığına həsr olunmuş 4 braşürün, 100-ə yaxın elmi məqalənin müəllifidir.

Müntəzəm olaraq dövrü mətbuatda, elmi toplulardа, jurnallarda, Beynəlxalq və Respublika konfranslarda elmi və publisistik məqalələrlə çıxış edən Jalə Qulamovanın pedaqoji fəaliyyətinə nəzər salsaq görərik ki, o, bu illər ərzində onlarla magistr və buraxılış işlərinə elmi rəhbərlik etmiş, magist işlərinə, fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarına rəylər vermiş, bir neçə dərs vəsaitlərinin elmi redaktoru olmuş, bir neçə monoqrafiyalara, dərs vəsaitlərinə ön söz yazmışdır.

Məleykə Göyçəlinin tərtibatçısı olduğu "XX-XXI əsrin yaradıcı və ziyalı insanları" (XIII hissə) adlı kitabda Jalə Qulamova haqqında məqalə yer almışdır. O, vaxtaşırı Televiziya və Dövlət Tədbirlərində, yaradıcılıq gecələrində ön sözlə, həmçinin televiziya kanallarında yayımlanan mədəniyyət verilişlərində çıxışlar edərək musiqi mədəniyyətimizin təbliği sahəsində də mühüm iş aparır.

Naxçıvan şəhərində anadan olan və öz doğma torpağında fəaliyyət göstərən musiqişünaslardan biri də Günay Məmmədovadır. O, professional musiqi təhsilinin hər üç pilləsini (orta ixtisas, bakalavr, magistr) musiqişünas ixtisası üzrə bitirmişdir.

Günay Məmmədova hələ tələbəlik illərində TEC xətti ilə keçirilən elmi konfransların iştirakçısı olmuş, I və II dərəcəli diplomlar almış, yaradıcılıq sahəsindəki uğurlarına görə Naxçıvan Muxtar Respublikası Gənclər, İdman və Turizm Nazirliyi və YAP Gənclər Birliyi tərəfindən 2002, 2010 və 2011-ci illərdə "İlin ən yaxşı gənc bəstəkarı" nominasiyasına layiq görülmüşdür. Onun qələminin məhsulu olan bir sira mahnı və marşlar, prelüdlər Naxçıvan MR Bəstəkarlar təşkilatının hesabat konsertlərində səsləndirilmiş, mahnıları muxtar respublikada keçirilən müsabiqələrdə I və II dərəcəli diplomlara layiq görülmüşdür. Bir neçə mahnısı "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" adlı not məcmuəsində çap olunmuşdur. Günay Məmmədova həmçinin fəal bir musiqişünas kimi 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Naxçıvan şəhərindəki 1 saylı uşaq musiqi məktəbində musiqi nəzəriyyəsi ixtisası üzrə müəllim kimi əmək fəaliyyətinə başlayan Günay xanım daha sonra Naxçıvan Musiqi Kollecində pedaqoji fəaliyyət göstərmişdir. 2005-ci ildən bugünədək Naxçıvan Dövlət Universitetində işləyir. 2016-cı ildə

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin dekanı vəzifəsinə təyin olunan G.Məmmədova həmçinin bir müddət Naxçıvan MR Bəstəkarlar təşkilatının məsul katibi vəzifəsində çalışmış, 2011, 2021 və 2022-ci illərdə Azərbaycan Respublikası Prezidentin "Yaradıcı şəxslər üçün təsis edilən təqaüd"ünə layiq görülmüşdür.

Tez-tez elmi jurnallarda, dövrü mətbuatda, televiziya və radioda Azərbaycan musiqisinin müxtəlif sahələrinin müasir problemlərinə həsr olunmuş mövzularda çıxışlar edir. Respublikamızda və xaricdə keçirilən Beynəlxalq Elmi konfransların, simpozium və konqreslərin, festivalların daimi iştirakçısıdır. Beynəlxalq kongreslərdə iclas sədrliyi etmiş, Euroasia Journal adlı Beynəlxalq indeksli jurnalın Hakimlik sertifikatını almışdır. Bir neçə dərs vəsaiti və not məcmuələrinin redaktoru və rəyçisi olmuşdur.

Monoqrafiya, dərs vəsaitləri, fənn proqramları, 60-a yaxın elmi və publisistik məqalənin müəllifi olan G.Məmmədovanın "Naxçıvan musiqi folkloru" adlı monoqrafiyasının təqdimatı Naxçıvan Dövlət Televiziyası efiri vasitəsilə, "Bəstəkar Nəriman Məmmədov" adlı dərs vəsaitinin təqdimatı Azərbaycan Dövlət Televiziyası efirində, Həmçinin "Bəstəkar Nəriman Məmmədov" və "Tofiq Bakıxanov: Naxçıvan sevincləri" adlı kitabların təqdimatı Naxçıvan Dövlət Universitetində keçirilmişdir. Aktiv elmi fəaliyyət göstərən Günay xanımın toxunduğu mövzulara nəzər salsaq görərik ki, o, əsasən Naxçıvan bölgəsinin musiqi folklorunun araşdırılmasında səmərəli fəaliyyət göstəmiş, bununla yanaşı T.Bakıxanov, N.Məmmədov, Q.Qarayev, C.Cahangirov, R.Mirişli, Ə.Cavid və s. kimi bəstəkarların yaradıcılığına və digər aktual mövzulara həsr olunan müxtəlif məzmunlu məqalələr onun qələminin  məhsulu olmuşdur.

"XX-XXI əsrin yaradıcı və ziyalı insanları" (XIII hissə) adlı kitabda Günay Məmmədova haqqında geniş məqalə dərc olunmuşdur. Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Günay Məmmədova hal-hazırda "Azərbaycanın Naxçıvan və Türkiyənin İğdır-Qars bölgələrinin mərasim musiqisi" mövzusunda doktorluq dissertasiyası üzərində tədqiqat işi aparır.

Nəticə. Azərbaycanda Musiqişünaslıq elmi sahəsində həll olunması tələb olunan problemlər və onların həlli musiqi mədəniyyəti tarixində bəstəkarların yaradıcılığını, onların müxtəlif janrda yazmış olduqları əsərləri, bu əsərlərdə təcəssüm etdirməyə çalışdıqları qlobal fikirləri daha geniş formada izah etməyə və bütün bunların ictimaiyyət tərəfindən düzgün şəkildə dərk edilib, qəbul olunmasına şərait yaradır. Buna görə də musiqi mədəniyyətimizin inkişaf mərhələlərini, müxtəlif janrlarda yazılmış əsərləri tədqiq edib düzgün formada ictimaiyyətə təqdim etmək bundan sonra da Azərbaycanda musiqişünasları qarşısında duran mühüm vəzifə olaraq qalmalıdır.

**Nəticə**

Beləliklə, deyə bilərik ki, fəaliyyətinə nəzər saldığımız hər bir musiqişünasın həqiqətən də Azərbaycan musiqi elminin inkişafında özünəməxsus dəsti-xətti olduğunun şahidi oluruq. Məqalədə adları çəkilən musiqişünaslrın hər biri demək olar ki, musiqişünaslığın hər üç istiqamətində - elmi, pedaqoji və tətbiqi sahələrində kifayət qədər fəal çalışan alimlərdir. Onların çalışmalarında Naxçıvanla bağlı - istər bəstəkar, istərsə də xalq yaradıcılığına dair araşdırmalar çoxluq təşkil edir. Yazılan monoqrafiyalar, dərsliklər, dərs vəsitləri, elmi məqalələr Azərbaycan musiqişünaslığının müasir problemlərinin müəyyən mənada həllinə səbəb ola biləcək əsərlərdir. Onların öz sələflərinin yolunu davam etdirərək yetişdirdikləri istedadlı musiqişünas tələbələrinin gələcəkdə estafeti layiqincə davam etdirəcəklərinə inanırıq!

## ƏDƏBİYYAT

1. Göyçəli M. XX-XXI əsrin yaradıcı və ziyalı insanları (XIII hissə). Bakı, 2017. 294 s.
2. Qulamova J. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar təşkilatının 30 ildə keçdiyi yaradıcılıq yolu. Bakı, 2010. 135 s.
3. Musiqişünasların şəxsi arxivləri.
4. Vəzirov C., Əliyeva J. Sözlü, nəğməli Naxçıvan. Bakı, 2003. 140 s.

***Naxçıvan Dövlət Universiteti***

**Rumiya Mamedova**

**THE ROLE OF NAKHCHIVAN MUSICIANS IN AZERBAIJAN MUSICOLOGY**

Musicology as one of the main directions of art studies studies the aspects and regularities that determine the specifics of musical culture. This ancient field of science has a centuries-old history. Since the Middle Ages, certain scientific results have been achieved in Azerbaijani musicology thanks to the treatises of the outstanding scientists Safiaddin Urmavi, Abdulgadir Maragi, Mirza Bey, the treatises of Mir Mohsun Nawwab, the scientific concepts and researches of the genius Uzeir Hajibeyli.

The establishment and development of the 20th century musicological school in Azerbaijan, as well as in all areas of music, is connected with the name of the great Uzeir Hajibeyli. The great musicologist-scientist Uzeir-bek laid the foundations of modern musicology with his scientific work “Basics of Azerbaijani folk music” and provided invaluable services in the education of a new generation of musicologists.

Nakhchivan musicians also made a unique contribution to the development of Azerbaijani music education. Thus, for their unceasing activity in this field, the first musicologist Nakhchivan, Candidate of Art Studies, Associate Professor Agida Alekperova, then Musicologist Rukhsara Huseynova, Doctor of Philosophy in Art Studies, Associate Professors Gullu Ismailova, Zhalya Gulamova, Gunai Mamedova were selected.

We are witnesses of the fact that every musicologist who looks at his scientific and pedagogical activity on this topic is truly a unique set in the development of Azerbaijani musical science. Written monographs, scientific articles are works that, in some sense, can lead to the solution of modern problems of Azerbaijani music education.

**Keywords:** *Azerbaijan, Nakhchivan, music education, monograph, scientific article.*

**Румия Мамедова**

**РОЛЬ НАХЧЫВАНСКИХ МУЗЫКОВЕДОВ В АЗЕРБАЙДЖАНСКОМ МУЗЫКОВЕДЕНИИ**

Музыковедение как одно из основных направлений искусствоведения изучает аспекты и закономерности, определяющие специфику музыкальной культуры. Эта древняя область науки имеет многовековую историю. Со времен средневековья в азербайджанском музыковедении были достигнуты определенные научные результаты благодаря трактатам выдающихся ученых Сафиаддина Урмави, Абдулгадира Мараги, Мирза-бея, трактатам Мир Мохсуна Наввабa, научным концепциям и исследованиям гениального Узеира Гаджибейли.

Становление и развитие музыковедческой школы XX века в Азербайджане, как и во всех областях музыки, связано с именем великого Узеира Гаджибейли. Великий музыковед-ученый Узеир-бек своим научным трудом «Основы азербайджанской народной музыки» заложил основы современного музыковедения и оказал неоценимые услуги в воспитании нового поколения музыковедов.

Нахчыванские музыковеды также внесли уникальный вклад в развитие азербайджанского музыковедения. Так, за их неустанную деятельность на этом поприще были выбраны первый музыковед Нахчывана, кандидат искусствоведения, доцент Агида Алекперова, затем музыковед Рухсара Гусейнова, доктора философии по искусствоведению, доценты Гюллу Исмаилова, Жаля Гуламова, Гюнай Мамедова.

Мы являемся свидетелями того, что каждый музыковед, который смотрит на свою научную

и педагогическую деятельность по данной теме, действительно представляет собой уникальный набор в развитии азербайджанской музыкальной науки. Написанные монографии, научные статьи – это работы, которые в каком-то смысле могут привести к решению современных проблем азербайджанского музыковедения.

**Ключевые слова:** *Азербайджан, Нахчыван, музыковедение, монография, научная статья.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 27.04.2024**
**Son daxilolma tarixi:18.05.2024**